*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (4) 2023*
https://doi.org/ 10.46868/atdd.2023.

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received : 30.04.2023*
*Kabul tarihi |Accepted: 20.06.2023*
*Yayın tarihi |Published : 25.08.2023*

**Alamdar Bayramov**

https://orcid.org/0000-0002-6599-5788
*Baku State University,Dean of the Faculty of Library and Information Science, Associate Professor of the Department of Bibliology and Publishing, Azerbaijan, alemdarbayramov@bsu.edu.az*

**Nadir Ismayilov**

https://orcid.org/0000-0002-2966-1991
*Baku State University, Associate Professor, Doctor of Philosophy, Azerbaijan, kafedra_biblioqraf@mail.ru*

**Parviz Kazimi**

https://orcid.org/0000-0001-5577-4773
*Baku State University, Associate Professor, Doctor of Philosophy, Azerbaijan, parvizkazimi@gmail.com*

***Atıf Künyesi | Citation Info***
Bayramov, A., Ismayilov, N., Kazimi, P. (2023). Tanınmış Azərbaycan Ziyalısı, Kitabxanaşünas, Biblioqraf və Ədəbiyyatşunas (Azərbaycanın Kitabxana Quruculugunda A.Səidzadənin Rolu) *Akademik Tarih ve Düşünce Dergisi, 10* (4), 1004-1010.

# Tanınmış Azərbaycan Ziyalısı, Kitabxanaşünas, Biblioqraf və Ədəbiyyatşunas (Azərbaycanın Kitabxana Quruculugunda A. Səidzadənin Rolu)

**Xülasə**

*Sovet dövri mirasının siyasi, iqtisadi və mədəni tərəflərinə nəzər yetirdikdə belə bir mənzərə yaranır ki, mədəni mirasımız daha dəyərli və əhəmiyyətli hesab edilir. Sovet dövrünün mədəni quruculugu, müştərək mədəni, ədəbi, tətbiqi və təsviri sənət nümunələri insanları yaxınlaşdıran, birləşdirən dəyərlər kimi qiymətləndirilə bilər. Bu baxımdan da mədəni mühitin yaradılmasında, inkişafında əhəmiyyətli rol oynamış şəxsiyyətlərin əməyini, rolunu, xidmətlərini öyrənmək və qeyd etmək vacibdir. Əliəjdər Səidzadə həyatını Sovet dövrünün agır illərində mədəni quruculuga, kitab və mütaliənin təbliginə, likabxana fəaliyyətinin genişləndirilməsinə, ədəbi əlaqələrin genişləndirilməsinə həsr etmiş proqressiv bir ziyalıdır. Hazırki məqalə, onun çox yönlü kulturoloji fəaliyyətinin öyrənilməsinə və qiymətləndirilməsinə həsr olunub. Sovet ideoloji sistemində milliliyi qoruyub saxlamaqla dünyavi dəyərlər sistemində olan yaradıcılıgı ilə yanaşı dövlətçilik mövqeyini də itirməyən*

*Ə.Səidzadə maraqlı bir həyat yaşayıb. Geniş mütaliəsi və dünyagörüşü qiymətli yaradıcılıgında öz əksini tapmışdır. Onun fəaliyyət və düşüncələrində "Təbligat bütün hallarda ideolohiya deyil və təbligat proqressiv olmalıdır..." yanaşması diqqəti xüsusilə cəlb edir.*

***Açar sözlər:*** *Tanınmış kitabxanaşünas, biblioqraf və ədəbiyyatşünas, Azərbaycanda kitabxana işi, elmi məktəbin yaradıcısı*

# Well-Known Azerbaijani Intellectual, Librarian, Bibliographer and Literary Critic (The Role of A. Saidzade in the Library Construction of Azerbaijan)

## Abstracts

*When we "consider" the political, economic and cultural aspects of the heritage of the Soviet era, a picture emerges that our cultural heritage is considered more valuable and important. Cultural constructions of the Soviet period, common examples of cultural, literary, applied and fine arts can be assessed as values that bring people together and unite. In this regard, it is important to study and celebrate the work, role and merits of individuals who have played an important role in the creation and development of the cultural environment. Aliajdar Saidzade is a progressive intellectual who devoted his life to cultural construction, the popularization of books and reading, the expansion of library activities, and the expansion of literary ties in the difficult years of the Soviet era. This article is devoted to the study and evaluation of his versatile cultural activities. An interesting life was lived by A. Saidzade, who, along with the creativity of his "state position" in the system, did not lose secular values while maintaining the national concept in the Soviet ideological system. Reading and worldview are reflected in his valuable works. In his actions and thoughts, the approach "Propaganda is not in all cases an ideology and propaganda must be progressive ..." is especially noteworthy.*

***Keywords:*** *Well-known librarian, bibliographer and literary critic, library work of Azerbaijan, founder of the scientific school.*

## Giriş

Oktyabr inqilabından sonra "proletariatın diktaturası" ilə qurulacaq dövlətin romantizmi Moskva və Peterburqdan fərqli olaraq əyalətlərdə cazibədar görsənmirdi. Əyalətlər özünü dini və milli qruplarda ifadə edirdi ki, bir çox reqionlarda proletariat "anlaşılmaz bir məhfum" idi. İctimai mühitdə ziyalılar da müxtəlif dünyagörüşü və təhsilindən irəli gələrək fərqliliklərini, mövqelərini bildirir, qurucu, yaradıcı bəzən də dagıdıcı mövqələrdən çıxış edirdilər. Cəmiyyətin dini, sosial və ideolojı çoxqütblülüyü XX əsrin 20-ci illərinin əvvələrində tədricən vahid, idarəolunan lakin mürəkkəb sosial-mədəni mühitə çevrilirdi. Dövrün sosial-mədəni mühitinin təhlili göstərir ki, ictimai münasibətlərdə millilik və dövlətçilik dəyərlərini əsas

qəbul edən və fəaliyyəti ilə bu iki məqsədə xidmət etməyi seçmiş ziyalıların da sayı az deyildi. Millilik və dövlətçiliyi biri-birini inkar etməyən istiqamətlər olaraq qəbul etmiş ziyalıların sayı XX əsrin 20-illərində çox idi. Xüsusilə də Azərbaycanda ziyalılar milli dəyərlərin dəstəklənməsi, milli maarifə və mədəniyyətə xidmət etmək o cümlədən dövlətə xidmət etmək kimi anlaşılırdı. Milli-mədəni inkişafa xidmət dünyavi dəyərlərə xidmət olaraq anlaşılır və bu prosesi mədəni inteqrasiya, dünyavilik kimi qiymətləndirirdilər. Bu baxımdan kitabxana dünyavi dəyərdi, kitab dünyavi mirasdır, mütali dünyavi prosesdir, sosial kommunikasiya dünyavi inkişafın vasitəsidir və s.

1921-ci ildə Ə. Səidzadənin "Kiçik türk kitabxanaları necə açılmışdır" adlı kitabı çap olunanda onun cəmi 22 yaşı var idi. 19-21 yaşlarında müəllimlik edən bu gənc təlim və təhsil prosesində mövcud olan əskikliklərdən xəbərdar idi. Dogrudur ki, 15 yaşında kiçik poeziya kitabçası ilə ilk nəşriyyat təcrübəsi əldə etmişdi. Lakin kitabxana fəaliyyətinin sosial, mədəni və fəlsəfi mahiyyətini anlamaq, millətin, cəmiyyətin təkamülündə onun rolunu düzgün qiymətləndirmək üçün 22 yaşlı gəncin addımları o dövr üçün çox ambisiyalı sayılmalı idi (Azərbaycan Respublikası Dövlət Arxavi. A.A. Said-zadə, S-304- D-304). O, Azərbaycan akademik düşüncəsində kitabxana fəaliyyətinə həsr edilmiş ilk elmi əsəri istifadəyə verilmişdir.

Azərbaycan ictimai fikrində multikultural dəyərlər bütün dövrlərdə əhəmiyyətli hesab edilib. Azərbaycanda çox dilli, çox millətli və toleyrant mühitin formalaşmasında ziyalıların müstəsna rolu olmuşdur (Aghamirzayev, 2021, s. 829). Azərbaycanın ictimai xadimləri bütün tarixi mərhələlərdə üçdilli olmuş, dünya ədəbiyyatı və mütəfəkkirləri ilə tanış olmuş, onların əsərlərini tərcümə edərək yaymış və təblig etmişlər. A.Səidzadə də məhz belə ziyalılardan idi. Azərbaycan dili ilə yanaşı Rus, fars və ərəb dillərini də bilmiş və bu dillərə mükəmməl hakim oldugu üçün SSRİ Elmlər Akedemiyasında uzun müddət çalışmışdır.

Diqqəti cəlb edən odur ki, 1921-ci ildə Mockva şəhərində RK(b)P-nin türk dilində nəşrlər üzrə məsul katibi, 1922-ci ildə Şərq əməkçiləri Kommunist Universitetinin lektoru,1923-ci ildə şərq nəşriyyatının Azərbaycan sektorunun müdüri vəzifələrində çalışmış və nəşriyyat-poliqrafiya imkanları ilə yaxından tanış olmuşdur (State Archive of the Russian Federation F.1318.Оп.21.D. 402.1.L.325-328). 1929-cu ildən leninqrad Dövlət Universitetində türk xalqlarının tarixi müəllimi və şərqşunaslıq institutunda elmi işçi kimi fəaliyyətini davam etdirir.1937-ci ildən CCRİ Elmlər Akademiyası, Tarix institutunda fars dili müəllimi, 1944-1946-cı illərdə CCRİ Elmlər Akademiyasının doktorantı olur.

Sonralar "Ümumi dilçilik" kafedrasının müdiri, türk xalqlarının tarixi sahəsində pedoqoji fəaliyyət, fars dili müəllimi, nəşriyatda məsul katib, universitetdə partiya lektoru olmaqla yanaşı, eyni zamanda da Nəsimi, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundov,

A.A.Bakıxanovun tarixi Ədəbi portretlərinin üzərində işləməsi A.Səidzadənin geniş akademik platformasını göstərirdi. Bütün bunlar ikinci dünya muharibəsinin ən amansız dövründə baş verirdi.

Sovet illərində yazılmış tərcümeyi halında Bakı neft mədənlərində çalışması və təhsilini tamamlamaması haqqında məlumat verilsə də, yaradıcılıgında fəhlə obrazlarına, mativlərinə rast gəlmirik və fəaliyyətində ifadə olunan geniş mütaliə və fəlsəfi analitik başarıq, şərq dillərinə bələd olması, ədəbi materiallarla orijinaldan tanış olması özünü göstərir. Bu mənzərə uzunmüddətli əməksevərliyin nəticəsi kimi qarşıya çıxır.

Məhz bu ambisiyaların nəticəsi olaraq 1922-ci ildə kitabxana quruculugu, mütaliə mədəniyyəti və maarifçilik mövzularını özündə əks etdirən üç kitabla qarşımıza çıxır. “Kitabxana nədir və ümumən necə kitabxanalar olur”, “Kitabın gücü və əhəmiyyəti nədədir”, “El kitabxanalarında kitablar necə yazılmalı və təsnif edilməlidir?” adlı bu üç kitab, azərbaycanın mədəni mühitinə təqdim edilən, Azərbaycan elmi-mədəni mühitində ilk dəfə gündəmə gətirilən mövzular və azərbaycan dilində sahənin ilk akademik məhsulu idi.

Azərbaycan ictimai fikrində Nəriman Nərimanov fenomeni hələ fə xatirələrdədi. O da XIX əsrin sonlarında ali tibb təhsili alaraq Bakıya gələndə bir başa tibbi praktika ilə məşgil olabilərdi. Azərbaycanda yüksək peşəkar tibbi kadrlara ehtiyac oldugu halda N.Nərimanov ictimai kitabxana açaraq insanların maariflənməsinə üstünlük verdi. İctimai mütaliənin təşkili, insanların maarlənməsi problemi o dövrlərdə saglamlıq problemindən daha əhəmiyyətli görsənirdi. Bu baxımdan Ə.Səidzadənin mövqeyi də iyirminci illərin başlangıcında diqqəti cəlb edir.

Ə. Səidzadə mütaliəni idrakın təkamülündə əsas vasitə hesab edirdi. Kitabxanalar ictimai mütaliənin təşkilatçısı kimi cəmiyyətin əsas akumulyasiya mərkəzi olaraq təqdim olunurdu. Alim Kitabxana, ictimai mütali, poeziya və fəlsəfə sahələrini biri-birini törədən sahələr olaraq təqdim edir və öz yaradıcılıgında də bu proses aydın görsənməkdə idi. Tədqiqatçı Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundov, A.A.Bakıxanov, Bakuvi kimi düşüncə insanlarının irsini öyrənib təbliq edir və cəmiyyətin inkişafında klassik kulturalojı yanaşmanı önə çəkirdi (https://dergipark.org.tr/en/pub/tk/issue/48648/618475). Əslində alim elmi və publisistik irsində bir kulturoloq olaraq xarirələrdə qalır.

Alim xüsusi ədəbiyyat təhsili almamışdı. Lakin bütün azərbaycan ziyalılarına xass olan ədəbiyyata baglılıq, ədəbiyyatda “dünya idrakının açarlarını axtarmaq” səyləri, bəşəri suallara cavab axtarışı, hikmət və üsul anlayışları ilə tanış idi. Odur ki, ilk fürsətdə düşüncələrini yazıya keçirərək azərbaycan və rus mütəfəkkirlərinin ədəbi və düşüncə əməkdəşlıgını təhlil edir.

1946-cı ildə Azərbaycanın tanınmış mistik şairi Nəsiminin 600 illiyinə beş publisistik əsər həsr edir. Onlardan dördü Azərbaycan Elmlər Akademiyasının "elmi xəbərlərində" çap olunur. "Материализм – основа философии Насими","Насими и Хафиз Ширази", "Насими, как поэт-мыслитель", "Несими на западноевропейских языках: [к 600 – летию со дня рождения великого азербайджанского поэта]", "Опыт периодизации творчества Насими». Bu əsərlər Nəsimi irsinin öyrənilməsinə verilmiş böyük töhfə olmaqla yanaşı alımin tədqiqat diapazonunun genişliyini də göstərirdi. Alim, Azərbaycan mütəfəkkirlərini tədqiq edərək onları dünya mədəni mirası olaraq təqdim edir, milli fərqlilik, "müstəsnalıq" və "ədəbiyyatda üstünlük" müqayisəsi müzakirə obyekti deyil. Bu kimi yanaşmalar alimin dünyagörüşünə ziddir. Diqqəti cəlb edən bir xüsusiyyət də deyilənləri subut edir. Ə.Səidzadə Mirzə Şəfi Vazeh ilə alman ədəbiyyat xadimi Bodenşdent arasındakı anlaşılmamazlıgı (plaqiat hadisəsini) yüksək elmi və ədəbi etika ilə şəth edir. Bu mövzuya həsr edilmiş məqalə XX əsrin ortalarında dünya ədəbi mühitinə akademik etika normalarını özündə nümayiş etdirir.

XX əsrdə Azərbaycan ədəbiyyatşünaslıq elminin formalaşmasında da Əliəjdər Səidzadənin mühüm xidmətləri olmuşdur. Onun yaradıcılığında ana xətt ədəbi prosesin tədqiqi olsa da, istər fəlsəfi, istərsə də kitabxana işi, kitab və biblioqrafiya mədəniyyətimiz haqqında qiymətli əsərləri mövcuddur (Agamirzayev, 2022, s. 47-51). Onun əsərləri ilə tanışlıq göstərir ki o bu əsərləri ilə azərbaycanda kitabçılıq, kitabxana işi və biblioqrafiya sahəsində elmi düşüncənin ilk müəlliflərindən biridir.

Bu illərdə, Azərbaycanda kitabxana işi sahəsində ilk "kurslar" fəaliyyətə başlanılır. Kitabxana fəaliyyətinin ənənəvi düşüncədən ideolojı düşüncəyə keçdiyi bu tarixi mərhələdə seçim etmək vacibdir. Alim öz seçimini edir. Onun irəli sürdüyü konsepsiyada ictimai mütaliənin təşkili və kitbaxana fəaliyyəti seçilmişlərin fəaliyyəti deyil, ictimaidir, kütləvidir, eləcədə təbligat bütün hallarda ideologiya deyil, təbligat proqressiv olandır, inkişafı və təkamülü dəstəkləyəndir (Kazimi, 2011). 1942-ci il mayın 14-də "Mirzə Şəfi Sadıq oğlu Vazeh" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş və uzun illər "Xurufət Nəsimi Şirvani" mövzusunda doktorluq dissertasiyası üzərində işləmiş və onu da bitirməmişdir. Ə.Səidzadə haqqında ensiklopedik mənbələrdə yazıldığına görə o Azərbaycan Sovet ədəbiyyatşünası və biblioqrafı, 100-ə yaxın elmi əsərlərin müəllifi, həmçinin "Kitabxana işinin təşkili", "Ümumxalq kitabxanaları", "Xalq kitabxanalarında kitabların təsnif və təsvir olunması" və s. kimi kitabxana-biblioqrafiya metodik vəsaitlərini yazmışdır. Ə.Səidzadə Azərbaycan mətbuatının biblioqrafik icmalların və kitab nəşri tarixinə dair bir sıra məqalələrin müəllifidir.

Ə. Səidzadənin 1914-1969-cu illərdə Azərbaycan dilində kitab halında 11 əsəri çap olunmuşdur. Onlar aşağıdakılardır: Məhəbbəti-madaranə [1914], Kiçik türk kitabxanaları necə açılmışdır [1921], Kitabxana nədir və ümumən necə kitabxanalar olur[1922], Kitabın gücü və əhəmiyyəti nədədir [1922], El kitabxanalarında kitablar necə yazılmalı və təsnif edilməlidir [1922], Klub işçilərinin quruluşu: (Klub işində çalışanlar və siyasi-maarif işçiləri hazırlayan kurslar üçün rəhbər)[1924], Mirzə Şəfi Vazeh: (Mirzə Şəfi Vazehin yaşayış və yaradıcılığının arxiv materiallarına görə öyrəniş təcrübəsi) [1929], Gəncəli böyük mütəfəkkir və şair Mirzə Şəfi “Vazeh”: (həyat və yaradıcılığı) [1929], Orta əsrlərdə Azərbaycanın Hindistanla mədəni əlaqələri tarixindən: oxunmuş mühazirənin stenoqramı[1958], Uydurulmuş möcüzələr[1966], Mirzə Şəfi Sadıq oğlu Vazeh [1969]. Görkəmli alimin rus dilində kitabları 1929 cu ildən çap olunmağa başlamışdır. Bunlara misal olaraq Великий мыслитель и поэт Ганджи Мирза Шафи Вазех [1929], Мирза Шафи или Боденштейт?: (к вопросу о происхождении, объеме и характере плагиаторстве Фр.Боденштедта)[1940], Мухаммед - Али Бакуви - выдающийся азербайджанский поэт и философ XI века [1960], Мирза-Шафи Садык-оглы Вазех / [Предисл Е. Бертельса][1969].

Ə.Səidzadə 1922-1971-ci illərdə Azərbaycan və covet mətbuatında yorulmadan çıxış edir. İlk əsəri “Zaqafqaziya türk mətbuatı “adlanır və Qızıl Şərq mətbu orqanında 1922-ci ildə çap olunmuşdur. Tərcümələrə misal olaraq D. Çunqadze tərəfindən Surizm qalası: (bir parça) hekayəsini qeyd edə bilərik. Bu tərcümə əsəri 1928-ci ildə İnqilab və mədəniyyət jurnalının 8-ci nömrəsində çap olunur. Azərbaycanın qabaqcıl ziyalılarının Puşkin və Lermantov yaradıcılıgına münasibəti, qarşılıqlı ədəbi əlaqələr, poetik materialların bəşəriliyi mövzusu tədqiqatçının 40-50-ci illərdə diqqət mərkəzində idi (Kazımi, 2012). Bu mövzulara həsr etdiyi məqalələri hal-hazırda da aktuallıgını saxlamaqdadır.

Görkəmli şəxsiyyətlərin həyat və yaradıcılığına dair 1929-cu ildə Əmin, A. Mirzə Fətəliyə yersiz bir hücum münasibətilə, 1940-cı ildə Qiymətli kitab: [Ə.Seyidzadənin “Mirzə Şəfi yainki Bodenştedt” kitabı haqqında],1969-cu ildə Bünyadov, Z. Maraqlı tədqiqat əsəri: [Ə.Ə.Seyidzadənin rus dilində nəşr edilmiş “Mirzə Şəfi Vazeh” əsəri haqqında], 1970-ci ildə Şükürov, S. Qiymətli axtarışların nəticəsi: [Əliəjdər Səidzadənin “Mirzə Şəfi Vazeh” kitabı haqqında], 2015-ci ildə isə Azərbaycanda tətbiq edilən təsnifat sistemləri: [bölmdə Ə.Ə.Səidzadənin “El kitabxanalarında kitablar necə yazılmalı və təsnif edilməlidir” adlı metodik vəsaitindən də bəhs olunmuşdur] nəşr olunmuş əsərləri göstərə bilərik.

**Nəticə**

Əliəjdər Səidzadə həyatını Sovet dövrünün agır illərində mədəni quruculuga, kitab və mütaliənin təbliginə, likabxana fəaliyyətinin genişləndirilməsinə, ədəbi əlaqələrin genişləndirilməsinə həsr etmiş proqressiv bir ziyalıdır. Hazırki məqalə, onun çox yönlü kulturolojı fəaliyyətinin öyrənilməsinə və qiymətləndirilməsinə həsr olunub. Sovet ideolojı sistemində milliliyi qoruyub saxlamaqla dünyavi dəyərlər sistemində olan yaradıcılıgı ilə yanaşı dövlətçilik mövqeyini də itirməyən Ə.Səidzadə maraqlı bir həyat yaşayıb. Geniş mütaliəsi və dünyagörüşü qiymətli yaradıcılıgında öz əksini tapmışdır. Onun fəaliyyət və düşüncələrində "Təbligat bütün hallarda ideolohiya deyil və təbligat proqressiv olmalıdır..." (Kazimi, 2021). yanaşması diqqəti xüsusilə cəlb edir. Onun əsərlərinin bir hissəsi Elmlər Akademiyasının elmi əsərlərində, respublika və keçmiş ittifaq mətbuatında dərc olunmuşdur. Mətbual və elmi jurnallarda çap olunmuş məqalələrin təhlili göstərir ki, bütün gündəmə gətirilmiş mövzular aktualdır, qabaqçıl ziyalı mövqeyidir və nameklatur düşüncələrdən kənardadır. Məhz bu səbəbdən onun elmi irsi nə repressiya illərində, nə də repressiyadan sonra fərqli hücumlara məruz qalmadı. Alim elmi, mədəni və sosial nüfuzunu qoruyub saxlamaq kimi çox agır bir imtahandan ugurla çıxdı.

**Ədəbiyyat Siyahısı**

Agamirzayev, A. (2022). The Place of Russian Migration Literature in The Teaching of "World Literature" -Ideological and Political Directions of Migration Literature and "World Literature. *Academic Journal of History and Idea, 9,* (4), 1818-1829.

Agamirzayev, A. C. (2021) (2021). Bright Image of the first wave Russian emigration literature-Ivan Bunin. Technium Social Sciences Journal, 26, 829.

*Azərbaycan Respublikası Dövlət Arxavi.* A. A. Said-zadə (S-304).

Kazimi, P. F. (2011). *Information engineering in library activity.* B. BSU print.

Kazımi, P. F. (2012). *Türk halklarının kitap ve kütüphane medeniyeti.* ABC.

Kazımi, P. F. (2017). Sosyal ve Kültürel Ortamın Oluşmasında Kitap ve Kütüphanelerin Rolü.*Türk Kütüphaneciliği, 31* (2), 245-250.Retrieved fromhttps://dergipark.org.tr/tr/pub/tk/issue/48648/618475

Kazimi, P. F. O. (2021). *Democratic countries and ways of influencing the nature of information.* Technium Social Sciences Journal, *22,* 847-851.